**Korrupsiya azğınlığı**
(Monitor, №14(41), 2003)

***İslam Əhmədov***

Korrupsiya – bu sözdə nə qədər dərin məna var… Bu qısa, ancaq dolğun söz özündə çox şeyi ehtiva edir: rüşvət tələb edən qudurmuş məmurların özbaşınalığını və həmin rüşvəti verən əhalinin sükutunu. Bu, bu gün haqqında bol-bol danışılan dəhşətli bir sözdür, onunla mübarizə isə yalnız elan edilir ancaq heç vaxt başlanmır. Azğınlaşan korrupsiyalaşmış məmurun cəzalanması halları haqqında çoxmu məlumatınız var? Əslində mənim heç bir məlumatım yoxdur. Korrupsiya – haqqında bütün siyasi və dövlət xadimlərinin danışdığı problemdir, ancaq heç bir həlli yoxdur və yəqin ki, olmayacaqdır. Hətta prezident də müsahibələrinin birində söyləyib ki, Azərbaycanda korrupsiyaya qalib gəlmək mümkün deyildir. Əgər prezident özü korrupsiya piramidasının başında durursa, əlbəttə qalib gəlmək olmaz.

İndi korrupsiya haqqında ağıllı ifadələrlə uzun-uzadı danışmaq dəbdir. Əgər ixtiyari Azərbaycan vətəndaşından soruşulsa ki, onun fikrincə iqtisadi islahatlara nə maneə olur? Əminəm ki, hər bir kəs ölkənin inkişafını ləngidən səbəblər sırasında korrupsiyanı göstərəcək. Bu haqda çoxlu dəyirmi masalar keçirilir, qəzet səhifələri ifşaedici materiallarla doludur. Korrupsiyanın isə «heç tükü də tərpənmir».

Tədricən bütün cəmiyyət korrupsiyanı yalnız qaçılmaz bəla kimi yox, rifaha doğru yeganə mümkün yol kimi qəbul etməyə başlayır. Korrupsiya xərçəng şişi kimi öz rişələrini getdikcə daha dərinlərə ataraq Azərbaycan dövlətçiliyini özünü də dağıdır. Xalis milli təzahür olmasa da koorupsiya məhz Azərbaycanda yeni cizgilərlə dolğunlaşıb və elə miqyas alıb ki, cəmiyyətin mübarizə apardığı problemdən millətdə əmələ gəlmiş sağlam təzahürləri parçalayan bir əjdahaya çevrilib.

Korrupsiya mahiyyətinə görə, ölkədə gedən iqtisadi tərəqqidən mənfəət qoparmaq istəyən apparat məmurlarının ciddi-cəhdidir. İctimai nəzarətin zəif olduğu ölkələrdə bürokratiya hakim sinfə çevrilir və beləliklə də maliyyə axınlarını öz nəzarəti altına almağa səy göstərir.

Korrupsiya problemini nəzərdən keçirdikdə, onun kökündəki psixoloji izləri görmək olar. Əhalinin inzibati idarəetmədə məşğul olan hissəsi mənfəətin ictimai bölgüsü mexanizmindən kənarda qalır. Onların gəliri nə birbaşa, nə də dolayı olaraq cəmiyyətin gəlir səviyyəsindən asılı olmur. Cəmiyyətin bizneslə məşğul olan sosial fəal üzvlərinin gəliri ilə öz gəlirləri arasındakı fərqi əvəzləmək üçün dövlət idarəçiliyi sistemində işləyən elə o cür sosial fəal vətəndaşlar bundan mənfəət əldə etmək istəyirlər.

Dərin köklərə malik olan korrupsiya ənənələri vtoritar təmayüllü cəmiyyətlərdə xüsusilə güclüdür. Elitanın hakimiyyəti seçicilərin etimadı ilə deyil, digər yolla qazandığı cəmiyyətlərdə elitanın hakimiyyəti itirmək qorxusu yoxdur. Buna görə də o, asanlıqla bu hakimiyyəti mənfəətə çevirməyə başlayır.

Korrupsiyanın iki növü vardır. Birincisi, proqressiv korrupsiyadır. Bu halda məmurlar sahibkarların mənfəət bölgüsündə dolayı (vasitəli) iştirak edirlər. Əlbəttə bu, gözəl simayə görə yox, sahibkarların əməliyyatlardan yüksək mənfəət əldə etməsinə imkan verən hər hansı imtiyazların verilməsi sayəsində baş verir. Bu növ korrupsiya Qərb ölkələrində geniş yayılıb və yəqin çox az adam bilir ki, ən az korrupsiyalanmış iqtisadiyyatlı ölkə olan ABŞ-da hər il 800 mln. $ rüşvət kimi istifadə olunur.

Korrupsiyanın bu növünün də zərərli və təhlükəli olduğuna baxmayaraq, onun əsasında əlavə gəlirin bölgüsü durduğu və diskriminasiya xarakterli olmadığı üçün o tərəqqi ilə səciyyələnir.

İkinci növ korrupsiya sahibkarların qarşısında sədlərin çəkilməsinə əsaslanır ki, onlar HƏMİN SƏDLƏRİ KEÇMƏK ÜÇÜN HAQQ ÖDƏSİNLƏR. Bu korrupsiyanın ən neqativ növüdür və təəssüf ki, o, Azərbaycanda üstünlük təşkil edir.

İndi elə məqam çatıb ki, cəmiyyət korrupsiya problemini həll etməsə daha inkişaf edə bilməz. Korrupsiya qarşısında heç bir səddin olmaması iqtisadi böhranın əsas tərkib hissələrindən biridir. İxtiyari məmur onun üçün əlverişli münasibətlər modelini sahibkarlara qəbul etdirə bilir. Bürokratik aparatın gəlirləri müntəzəm artır, eyni zamanda isə sahibkarların gəlirləri enir. Bu zaman korrupsiya dövrəsinə daxil olmağı istəməyən sahibkarın müflis olması üçün şərait yaradılır.

İqtisadi sistemin özü elə şəkildə qurulub ki, vicdanla işləməkdənsə, rüşvət vermək xeyirli olur. Vergi və gömrük sistemləri, dövlətin iqtisadi siyasəti elə qurulub ki, sahibkar rüşvət verməyə məcbur olsun. Korrupsiya oyununun qaydalarını qəbul edən biznesmenlər qanunvericilik normalarına əməl etməyə səy göstərən biznesmenlərdən qat-qat yüksək mənfəət qazanırlar. Məmurlar dəstəsi də elə qanunvericilik aktları hazırlamağa öyrəşib ki, bunları ya pozmaq lazım gəlir (pozulduğuna görə rüşvət verilməlidir), ya da yerinə yetirdikdə gec-tez anlayırsan ki, bu mümkün deyildir.

Korrupsiya ilə mübarizənin əbəs olması fikri cəmiyyətə altdan-altdan qəbul etdirilir. Müntəzəm olaraq digər ölkələr nümunə çəkilir və bu zaman korrupsiya ilə mübarizə üzrə hər bir cəhdin ətrafında hay-küy qaldırılır. Əksəriyyət belə hesab edir ki, Azərbaycanda korrupsiya ilə mübarizə Don Kixotun yel dəyirmanı ilə mübarizəsinə bənzərdir. Əslində bu belədirmi?

Sözsüz ki, ritorik sualdır? Əlbəttə ki, korrupsiya ilə mübarizə mümkündür və vacibdir. Digər ölkələrin nümunəsindən görünür ki, korrupsiyanı elə səviyyəyə qədər azaltmaq olar ki, o, ölkənin inkişafına mane olmasın. Əgər biz normal dövlət olmaq istəyiriksə, biz korrupsiyanın cilovlanmasından başlamalıyıq. Söhbət geniş bəyanatların verilməsindən getmir, aşağıdakı şərtlərin yaradılması üzrə metodik planlı işdən gedir:

- inzibati-dövlət aparatının fəaliyyəti ilə pul axınlarının hərəkəti maksimum bir-birindən ayrılmalıdır;

- sahibkarlıq sərt vergi və inzibati buxovlarla (bunlardan yalnız bi çıxış yolu var: rüşvət vermək) məhdudlaşmamalıdır.

Bunun üçün bir neçə tədbir görülməlidir.

**BİRİNCİSİ**. Sahibkarlar və əhali ilə təmasda olan idarələrin əksəriyyətinin rüşvət alması halının kök saldığını nəzərə alaraq məmurların göstərdikləri xidmətlərin pullu edilməsi zəruridir. Eyni zamanda belə idarələrin sayının minimuma endirilməsi vacibdir.

**İKİNCİSİ**. Dövlət qulluqçuları üzərində sərt nəzarət sisteminin yaradılması vacibdir. Məmurların hüquq və öhdəlikləri aydın göstərilmiş "Dövlət xidməti haqqında" qanun qəbul edilməlidir. Bütün məmurlar və onların ailə üzvləri öz gəlirləri haqqında bəyannaməni doldurmalıdırlar. Ümumən gəlirlərin bəyan edilməsi tədbirinin həyata

keçirilməsi  ümumiyyətlə kölgə sektorru və xüsusilə korrupsiya ilə mübarizənin uğurlu formalarından biridir.

Xoşbəxtlikdən, korrupsiya probleminin həll edilməsi halları dünya təcrübəsindən məlumdur. Məsələn, ölkə hökuməti korrupsiyaya qarşı  sərt tədbirləri həyata keçirməsəydi "Sinqapurun iqtisadi möcüzəsi" adlanan təzahür çətin ki, baş verərdi.

Korrupsiya ilə mübarizə bu və ya digər xalqın milli kamillik imtahanıdır. Çünki korrupsiyanın qarşısı alınmayıbsa və onun ölçüləri fəlakətli miqyas alıbsa, bu milli faciəyə gətirib çıxarar.

Korrupsiyadan bəhrələnən iqtidar həmişə aşağıdakını yadında saxlamalıdır. Əlbəttə, hakimiyyətdən qorxan ölkə əhalisi korrupsiya azğınlığına uzun müddət dözə bilər. Ancaq avtoritar sistemlərin əksəriyyətinin xoşladığı bu cəhətin bir mühüm çatışmazlığı vardır: əhali ədalətli qanunlara əsaslanmadan idarə edən və milli nemətlərin böyük hissəsini mənimsəyən hakimiyyəti heç vaxt müdafiə etməz. Korrupsiyanın tüğyan etdiyi ölkələrin bir ovuc inqlabçının, yaxud xarici təcavüzkarın qurbanı olduğu barədə misalları çox göstərmək olar.

Bəşəriyyətin yeni tarixi korrupsiya azğınlığının qurbanı olmuş ölkə adları ilə doludur. Bu bir qayda olaraq, dövlətçiliyin əsaslarının zəif olduğu, demokratik normaların olmadığı və başlıcası, hakimiyyət tərəfindən iqtisadi münasibətlərin bütün spektrinin qəsb edildiyi ölkələrdir. Bu, "hakimiyyət" dedikdə "kapital" və əksinə, "kapital" dedikdə "hakimiyyət" başa düşülən ölkələrdir. Bu adətən,  keçmişi qeyri-müəyyən, indisi dumanlı və gələcəyi iflasa məhkum olan ölkələrdir.